Azərbaycan.- 2021.- 3 aprel. S. 3.

# Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib

Moskvadakı Beynəlxalq Hərbi Mərkəzdə MDB Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər naziri Ceyhun Bayramov təmsil edib.

İclas iştirakçıları xarici siyasi və humanitar sahələrdə əməkdaşlığın, təhlükəsizliklə bağlı qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə yönəlmiş sənədlərin layihələrini müzakirə ediblər.

Nümayəndə heyətlərinin rəhbərləri məhdud tərkibdə birlik formatında qarşılıqlı fəaliyyət və beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi aparıb, XİNŞ-nin növbəti iclasının tarixini və keçiriləcəyi yeri müəyyən ediblər. Həmin iclas 2021-ci il oktyabrın 14-də Minskdə, MDB Dövlət Başçıları Şurasının yubiley iclası ərəfəsində keçiriləcək.

1941-1945-ci illərin Böyük Vətən müharibəsinin başlanmasının 80 illiyi ilə əlaqədar Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının MDB ölkələri xalqlarına və dünya ictimaiyyətinə müraciətinin layihəsi bəyənilib.



Geniş tərkibdə keçirilən iclasda 2020-ci ildə xarici siyasət idarələri arasında tərəfdaşlığın aktivləşdirilməsinə dair fəaliyyət proqramının yerinə yetirilməsinin gedişi məsələsinə baxılıb. Qeyd edilib ki, 2020-ci ildə fəaliyyət proqramının reallaşdırılması MDB çərçivəsində çoxşaxəli əməkdaşlığın inkişafına və qarşılıqlı siyasi-diplomatik fəaliyyətin möhkəmlənməsinə kömək edib. Tərəfdaşlar sənədin bir sıra mövqeləri üzrə irəliləyişə, ən aktual mövzular üzrə XİN-lər arasındakı fəal dialoqu davam etdirməyə, aparıcı beynəlxalq məkanlarda qarşılıqlı fəaliyyət səylərini əlaqələndirməyə, əməkdaşlığın bu istiqamətində mövcud kadr potensialından daha tam istifadə etməyə nail olublar.

Xarici işlər nazirləri Birlik ölkələrinin xarici siyasət idarələri arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsi və inkişafı üçün fəaliyyət proqramının müddəalarından maksimum tam istifadə edilməsi üzrə işi davam etdirməyi qərara alıblar. XİNŞ iclasının iştirakçıları 2020-ci ildə birlik çərçivəsində çoxsəviyyəli XİN-lər arasındakı məsləhətləşmələrin nəticələrini bəyəniblər. Məsləhətləşmələrin gündəliyinə yeni mövzular daxil edilməsinin aktuallığı qeyd edilib. Həmçinin aparılmış məsləhətləşmələrdə əsas diqqətin birlik ölkələrinin maraqlarının nəzərə alınmasının səmərəli təmin edilməsinə və beynəlxalq təşkilatlarda mümkün olan birgə fəaliyyətin razılaşdırılmasına yönəldildiyi bildirilib.

Xarici siyasət idarələrinin rəhbərləri MDB İcraiyyə Komitəsinə 2022-ci il üçün MDB çərçivəsində çoxsəviyyəli XİN-lər arasındakı məsləhətləşmələr planının layihəsini müəyyən olunmuş qaydada MDB Xarici İşlər Nazirləri Şurasının iclasının müzakirəsinə təqdim etməyi tapşırıblar.

Layihələri XİNŞ tərəfindən bəyənilmiş iki sənəd baxılmaq üçün MDB Hökumət Başçıları Şurasına göndəriləcək. Həmin sənədlər geodeziya, xəritəçəkmə və Yerin məsafədən zondlaşdırılması sahəsində əməkdaşlıq və silahlı qüvvələrin zabitlərinin operativ-strateji hazırlığı sahəsində baza təşkilatının yaradılması barədədir.

İclasda birlikdə qüvvədə olan strategiyaların - bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığın, beynəlxalq gənclər əməkdaşlığının, habelə turizm sahəsində əməkdaşlığın inkişafı strategiyalarının reallaşdırılmasına dair tədbirlərin ortamüddətli planları təsdiq edilib.